HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
15 NOYABR 2019-CU İL/ №021 (101)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2

HƏMİD ÜÇÜN GECİKMİŞ YAZI

3

İNSANLIQ TARİXİNİN DÜNƏNİ VƏ BU GÜNÜ

5

OXUMAQ MƏDƏNİYYƏTDİR

5

DİLİMİZİ SEVƏK VƏ QORUYAQ

## GÜRCÜSTANIN YENİ TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRİ TƏYİN OLUNUB



Gürcüstanın baş naziri Giorgi Qaxaria Mixeil Çxenkelini ölkənin təhsil, elm, mədəniyyət və idman naziri təyin edib. M.Çxenkeli bu vaxta qədər baş nazirin müşaviri vəzifəsini yerinə yetirib. O, 2017-2018-ci illərdə Gürcüstanın təhsil və elm naziri olub.

Qeyd edək ki, Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili noyabrın 7-si vəzifəsindən istefa verib. Bu barədə ölkənin baş naziri Giorgi Qaxaria hökumət iclasında bildirib. G.Qaxaria M.Batiaşvilinin öz istəyi ilə vəzifəsini tərk etdiyini deyib.

Mixeil Batiaşvili 2018-ci ilin iyulundan Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri vəzifəsini tuturdu.

## LEVAN İZORİA GÜRCÜSTANIN MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASINA KATİB TƏYİN OLUNUB



Gürcüstanın Kəşfiyyat Xidmətinin rəhbəri Levan İzoria ölkənin Milli Təhlükəsizlik Şurasına katib təyin olunub. Bu barədə baş nazir Giorgi Qaxarianın rəhbərliyi altında keçirilən Şuranın ilk iclasında bildirilib.

Toplantıda ölkənin üzləşdiyi təhlükələr və regionda baş verən proseslər müzakirə olunub.

Kiber təhlükəsizlik, ərazi bütövlüyünə olan təhdidlər və işğal altında olan ərazilər məsələsinə xüsusi diqqət ayrılıb.

Qeyd edək ki, L.İzoria 2016-cı ilin avqustundan 2019-cu ilin sentyabrın 3-nə qədər müdafiə naziri olub. O, bu ilin sentyabrında Kəşfiyyat Xidmətinə rəhbər təyin olunub.

## GÜRCÜSTAN AVROPA ŞURASINA SƏDRLİK EDƏCƏK



“Avropa Şurasına sədrlik Gürcüstan üçün böyük məsuliyyətdir”. Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani Avropa Şurasının baş katibi Mariya Peyçinoviç Buriçlə keçirdiyi birgə mətbuat konfransında bildirib.

Nazir deyib ki, Avropa Şurasına sədrlik Gürcüstana təşkilat qarşısında duran problemləri aradan qaldırmağa və insan haqları, demokratiya və qanunun aliliyi sahələrində əsas dəyərlərin təşviqinə imkan verəcək.

D.Zalkaliani qeyd edib ki, Gürcüstan tərəfi AŞ-yə sədrliklə bağlı prioritetlərini müəyyənləşdirib.

M.P.Buriç öz növbəsində deyib ki, Gürcüstan Avropa Şurasında ilk vacib öhdəliyini yerinə yetirməyə hazırlaşır. Baş katib ölkənin həyata keçirdiyi hazırlıq işlərinin yaxşı getdiyini vurğulayıb.

Qeyd edək ki, noyabrın 27-də Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik Gürcüstana keçəcək. Sədrliyin ölkəyə rəsmi təqdim olunması mərasimi həmin tarixdə Strasburqda keçiriləcək. Gürcüstanın sədrliyi altı ay davam edəcək və 2020-ci ilin may ayında başa çatacaq.

## YENİ BİZNES OMBUDSMAN TƏYİN OLUNUB



Baş nazir Giorgi Qaxaria yeni biznes ombudsman vəzifəsinə Mixeil Dauşvilini təyin edib. M.Dauşvili baş nazirin yanında İqtisadi Şuranın keçmiş hüquqşünasıdır.

O, yeni təyinata qədər Gürcüstan Daxili İşlər Nazirliyinin Məlumat-təhlil departamentinin direktor müavini vəzifəsini tutub.

Qeyd edək ki, Gürcüstanın biznes ombudsmanı İrakli Lekvinadze və onun müavini Levan Kalandadze noyabrın 11-i istefa veriblər. İ.Lekvinadze 2018-ci ilin yanvarından Gürcüstanın biznes ombudsmanı vəzifəsini tuturdu. Gürcüstanda biznes ombudsmanı baş nazir təyin edir.



# HƏMİD ÜÇÜN GECİKMİŞ YAZI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Sitatçılıqda, sitatbazlıqda suçlanmaq, qınanmaq təhlükəsi ilə üz-üzə olsam da yazını yenə də sitatla başlayacam, çünki bizdə sözünün kəsəri olsun deyə, sözünə hörmət qoyulsun deyə mütləq saqqalının rəngi ağ olmalıdır, mənim isə saqqalımın rəngi hələ qaradır.

Deyəsən Anton Pavloviç Çexovun sözləridir, deyir ki, bir milləti məhv etmək üçün onun müəllimini gözdən salmaq kifayətdir.

Əslində bu yazı gecikmiş yazıdır. Ona görə gecikmişdir ki, araya qəzetin 100-cü sayı, xüsusi buraxılışı düşdü. Əlqərəz, bir də bu yazının gecikməsi üçün qınanmaq təhlükəsi ilə üz-üzə qalaraq keçirəm mətləbə. İndi isə zəhmət çəkib ikinci abzasda Çexovun sözlərini bir də oxuyun ki, yazıya doğru və düzgün köklənəsiniz.

Bəli, bir milləti məhv etmək üçün onun müəllimini gözdən salmaq kifayətdir. Çünki müəllimi gözdən düşmüş millətin müəllimi, məktəbi yox kimidir; müəllimi, məktəbi olmayanlar isə millət olmaz. Bunu mən özümdən uydurmuram, yenə Mustafa Kamal Atatürkdən sitat gətirməli olacam, Atatürk müəllimlər haqqında deyib: “Millətləri xilas edənlər yalnız və ancaq müəllimlərdir. Müəllimdən məhrum bir millət hələ millət adını almaq bacarığını əldə edə bilməmişdir. Ona kütlə deyilir, millət yox”.

Yuxarıda sitat gətirdiyim hər iki düsturüləməldən sual yaranır: bəs biz müəllimimizə hörmət qoyuruq, yoxsa gözdən salırıq; biz millətik, yoxsa kütlə? Müəllimlə bağlı başımıza gələn, daha doğrusu müəllimin başına gətirilən son olaylara “milli-mənəvi dəyərlər”, “adət-ənənələr” sərxoşluğu ilə yox, rasional zərrəbin (lupa) ilə baxsaq sualın doğru cavabını da aydın görmüş olarıq. Düşünmək əvəzinə kütləvi psixoza yayxanıb ya kənardan sakitcə “televizora” baxırıq, ya da tutuquşu kimi hamının fikrini(!) təkrar edirik.

Ən acınacaqlısı da müəllimin müəllimi “gözdən salmağa” fürsət güdməsidir, müəllimlik həmrəyliyini göstərmək əvəzinə kütlənin qaladığı ocağa yağ tökərək peşəsi ilə kütlə arasında kütləşməsidir, əppək ola bilməyib bu dərin təndirin közünə, külünə küt getməsidir. Necə ki, Həmidə linç məhkəməsi qurulanda etiraz etmək əvəzinə, peşə həmrəyliyi göstərmək əvəzinə sosial şəbəkələrdən tutmuş, müəllimlər otağına qədər onu qınayan, daşlayan, od üstünə yağ tökən müəllimlər də oldu. Müəllimin müəllimə hörmət etmədiyi, müəllimin müəllimi “gözdən saldığı” məktəblərdən millət yox, kütlə çıxar.

Həmiddə olan cəsarətin bu sözün ilk hecası qədəri Həmidin yaşında olarkən indiki yaşlı müəllimlərdə olsaydı bəlkə də bu gün zorla qız qaçırmalar, erkən evliliklər, 9-cu sinifdə nişanlanmalar, məktəbdən yayınmalar baş verməzdi. Vaxtında etiraz etmək, əleyhinə qalxmaq əvəzinə susuldu, Həmid dillənənə qədər susuldu. Axı, susmaq həm də razılıq əlamətidir deyirsiniz. Elə isə, #MəndəHəmidəm.

# 12 DEPUTAT PARLAMENT ÇOXLUĞUNU TƏRK EDİB

Hakim “Gürcü arzusu” Partiyasının 12 deputatı parlament çoxluğunu tərk edib. Onlar bu addımları ilə qanunverici orqanda proporsional seçki sisteminə keçidi nəzərdə tutan qanun layihəsinin qəbul olunmamasına etirazlarını bildiriblər.

Çoxluğu tərk edən deputatlar Tamar Çuqoşvili, İrina Pruidze, Giorgi Mosidze, Dmitri Tskitişvili, Tamar Xulordava, Sofo Katsarava, Zaza Xutsişvili, Mariam Caşi, Giorgi Beqadze, Zviad Dzidziquri, Nino Qoquadze və Qiqa Bukiadır.

Qeyd edək ki, T.Çuqoşvili parlamentin vitse-spikeri, S.Katsarava Xarici əlaqələr komitəsinin sədri, Mariam Caşi Təhsil, elm və mədəniyyət komitəsinin sədridir. Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun



rəhbəri Zviad Dzidziquri vitse-spiker vəzifəsindən də istefa verdiyini bildirib.

# PARLAMENTİN AZƏRBAYCANLI DEPUTATLARI PROPORSİONAL SEÇKİ SİSTEMİ İLƏ BAĞLI FƏRQLİ MÖVQE GÖSTƏRİBLƏR

Gürcüstan parlamentində proporsional seçki sisteminə keçidlə bağlı Konstitusiyaya dəyişikliklər üzrə səsvermənin nəticələri açıqlanıb. Plenar iclasda 141 deputat iştirak edib.

Qanun layihəsini 101 deputat dəstəkləyib, 3-ü isə əleyhinə səs verib.

Qanunverici orqanda təmsil olunan azərbaycanlı deputatların sənədlə bağlı mövqeləri fərqli olub. İclasda iştirak edən hakim “Gürcü arzusu” Partiyasından olan deputatlar – Mahir Dərziyev və Ruslan Hacıyev qanun layihəsinin lehinə səs verib, Savalan Mirzəyev isə səsvermədə iştirakdan imtina edib.

Parlamentin digər azərbaycanlı üzvü, müxalif Vahid Milli Hərəkat Partiyasının nümayəndəsi Azər Süleymanov da dəyişikliklər layihəsini dəstəkləyib.

Qeyd edək ki, Gürcüstan parlamentində proporsional seçki sisteminə keçidi nəzərdə tutan Konstitusiya dəyişiklikləri səs yetərsizliyindən qəbul olunmayıb. Qanun layihəsi tələb olunan 113 səsdən yalnız 101 səs toplayıb.

Gürcüstanda parlament seçkiləri 2020-ci ilin oktyabrında keçiriləcək.

*Mənbə:Report*

# GİORGİ QAXARİA ÖZÜNƏ İNSAN HAQLARININ MÜDAFİƏSİ ÜZRƏ MÜŞAVİR TƏYİN EDİB

Baş nazir Giorgi Qaxaria özünə insan haqlarının müdafiəsi üzrə müşavir vəzifəsinə Lela Akiaşvilini təyin edib.

G.Qaxaria bildirib ki, Gürcüstanda demokratik inkişaf prosesinin əsas məqsədi insan haqlarının müdafiəsinin təmin edilməsidir.

Hökumət başçısı qeyd edib ki, L.Akiaşvilinin beynəlxalq təşkilatlarda və insan haqlarının müdafiəsi sahəsində böyük təcrübəsi var.




# SALOME ZURABİŞVİLİ FOND YARADIB



Prezident Salome Zurabişvili fond yaradıb. “Salome Zurabişvilinin Fondu” adlanan təşkilatın Tbilisidə təqdimatı keçirilib.

Təqdimat mərasimdə çıxış edən S.Zurabişvili fondun idarə olunmasında iştirak etməyəcəyini, yalnız təşkilatın fəxri təsisçisi olacağını bildirib.

Prezident qeyd edib ki, fond Gürcüstan üçün ictimai əhəmiyyət kəsb edən məsələlərin həllini dəstəkləyəcək. Yeni təşkilatın strateji fəaliyyət istiqamətlərinə Uşaq Xərçəngi Mərkəzinin gücləndirilməsi, regional inkişafın təşviqi, Gürcüstan mədəniyyətinin təbliği, ətraf mühit və biomüxtəlifliyin qorunması daxildir.

Fondun bu istiqamətlər üzrə fəaliyyətinin həyata keçirilməsi üçün mövcud və potensial tərəfdaşların dəstəyi cəlb ediləcək.

# SƏRXOŞ HALDA AVTOMOBİL İDARƏ EDƏNLƏR İNZİBATİ QAYDADA HƏBS OLUNACAQLAR

Cari ilin ilk üç rübündə Gürcüstanda 4 273 yol nəqliyyat hadisəsi baş verib. Bu haqda məlumatı Milli Statistika Xidməti yayımlayıb. Məlumata əsasən, bu hadisələrdən təqribən 3%-i, yəni 127 fakt sürücünün sərxoş olması səbəbindən baş verib.

Qeyd edək ki, spirtli içki təsiri altında avtomobil idarə etməklə bağlı cərimələr dəyişir. Əgər sürücü ildə iki dəfə sərxoş halda avtomobil idarə etməkdə təqsirləndirilərsə ona inzibati həbs tətbiq ediləcək.

Daxili İşlər Nazirliyi qanunvericilikdə dəyişikliklər paketi hazırlayıb və dəyişikliyə əsasən, sərxoş halda avtomobil idarə etməyə görə tətbiq edilən cərimələr qanda alkoholun miqdarına uyğun təyin olunacaq. Yəni fərqli cərimələr iki mərhələli olacaq – qanda spirtin miqdarı nə qədər az olarsa cərimə də o qədər az olacaq.

## İRAKLİ QARİBAŞVİLİ TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRLİYİNİN HEYƏTİ İLƏ GÖRÜŞÜB

Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili Türkiyənin müdafiə nazirinin müavini Yunus Emre Karaosmanoğlu ilə görüşüb.



İkitərəfli görüş Batumi şəhərində Gürcüstanın müdafiəsi və təhlükəsizliyinə (GDSC) həsr olunmuş konfrans çərçivəsində baş tutub.

İrakli Qaribaşvili strateji tərəfdaşına Gürcüstanın ərazi bütövlüyünü və Avroatlantik strukturlara inteqrasiyası yolunda göstərdiyi dəstəyə, həmçinin konfransda iştirak etdiyinə görə minnətdarlığını bildirib.

Tərəflər Gürcüstan və Türkiyə müdafiə sahəsində olan və gələcək əməkdaşlıq məsələlərini müzakirə ediblər. Gürcüstanın müdafiə naziri NATO–Gürcüstan mövcud paketinin (SNGP) implementasiyası prosesində Türkiyənin rolunu xüsusi qeyd edib.

Həmçinin Türkiyənin silahlı qüvvələri və Gürcüstanın müdafiə qüvvələrinin birgə hərbi təlimlərdə iştirak etməsi və regional təhlükəsizlik məsələlərindən söhbət açılıb.

## GÜRCÜSTAN VƏ ÇİN “ORTA DƏHLİZ”İN İNKİŞAF İMKANLARINI MÜZAKİRƏ EDİBLƏR



Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava Çinə səfəri çərçivəsində bu ölkənin nəqliyyat naziri Li Siaopan ilə görüşüb. Bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi məlumat yayıb.

Tərəflər Gürcüstan və Çin arasında qarşılıqlı iqtisadi əməkdaşlıq məsələlərini müzakirə ediblər. Görüşdə “Bir kəmər, bir yol” təşəbbüsü də daxil olmaqla nəqliyyat dəhlizlərinin inkişafı məsələsinə xüsusi diqqət ayrılıb.

Qeyd olunub ki, Gürcüstan və Çin ticari-iqtisadi münasibətlərin dərinləşdirilməsi ilə paralel olaraq nəqliyyat sektorunun bütün sahələrində əməkdaşlığın gücləndirilməsi üçün böyük nailiyyətlər əldə edib.

N.Turnava “Orta dəhliz”in təşviqi ilə bağlı Gürcüstan hökumətinin atdığı addımlar barədə ətraflı məlumat təqdim edib.

L.Siaopan, öz növbəsində, “Orta dəhliz”in inkişaf etdirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirib. Nazir bu potensialın istifadə olunmasının əhəmiyyətini vurğulayıb.

Nəqliyyat naziri gürcü nazirin “Orta dəhliz”in imkanlarının artırılması və mövcud olan problemlərin aradan qaldırılması məqsədilə fəal çalışacaq daimi işçi qrupun yaradılması təklifini müsbət qiymətləndirib.

Görüşdə həmçinin iki ölkə arasında aviasiya və dəniz nəqliyyatı sahələrində əməkdaşlığın gücləndirilməsi məsələsi də nəzərdən keçirilib.

*Mənbə: Report*

## GÜRCÜSTANIN DƏMİR YOLLARI VASİTƏSİLƏ YÜK DAŞIMALARI ARTIB

2019-cu ilin ilk 10 ayı ərzində Gürcüstanın dəmir yolları vasitəsilə 8,57 milyon ton xam neft daşınıb. Bu barədə Gürcüstan Dəmir Yolları (Georgian Railways) şirkətinin hesabatında məlumat verilib. Hesabata görə, bu göstərici 2018-ci ilin eyni dövrü ilə müqayisədə 7% çoxdur.

Cari ilin yanvar-oktyabr ayları ərzində Gürcüstanda dəmir yolu ilə ümumilikdə 64,000 konteyner (TEU) daşınıb. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 34%, 2016-cı illə müqayisədə isə iki dəfə çoxdur.

Təkcə oktyabr ayı ərzində isə Gürcüstanda dəmir yolu ilə 1 milyon ton yük daşınıb ki, bu da 2019-cu ilin ayları üzrə ən yüksək göstəricidir.

2018-ci ilin oktyabr ayında isə



daşınan yüklərin həcmi 825 ton təşkil edib.

## ÖTƏN İL 8076 GÜRCÜSTAN VƏTƏNDAŞINA TÜRKİYƏDƏ İŞ İCAZƏSİ VERİLİB



Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasının 2019-cu il üzrə “Miqrasiya profili” hesabatına əsasən, 2018-ci ildə Türkiyədə 2 603 Gürcüstan vətəndaşına ailəsinə qovuşmaq, 8 076-sına isə əmək fəaliyyəti ilə bağlı yaşayış icazəsi verilib.

2017-ci ildə Türkiyədə yaşayış icazəsi olan Gürcüstan vətəndaşlarının sayı isə 21 465 nəfər təşkil edib. İllik müqayisədə qonşu ölkədə bu sənədi alan Gürcüstan vətəndaşlarının sayında 18 511 nəfər artım qeydə alınıb.

## İNSANLIQ TARİXİNİN DÜNƏNİ VƏ BU GÜNÜ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Allah insanı bu dünyada ən üstün şəkildə yaradarkən onu ağıl, şüur, iradə və bir çox üstün xüsusiyyətlərlə təchiz edərək əşrəfi-məxluqat, yəni yaradılmışların ən şərəflisi etdi (Tin, 4). İnsan yaradacağam dediyi zaman mələklər belə bizə qibtə etdilər (Bəqərə, 30). Ancaq insan oğlu Allahın onu yaratmasındakı hikməti nə yazıq ki, dərk etmək istəmir. Bizi yaradan bizim yaxşılığımız üçün, xoşbəxtliyimiz üçün bəzi qaydalar qoydu. Ancaq biz nəfsimizin istəklərinə uyaraq o qanunları belə heçə sayırıq.

Allah ilk insan olan Adəm peyğəmbərin oğullarına nemətlər verdi, ancaq üstünlük sevdası ilk cinayətin səbəbi oldu. Nuh əleyhissalam ömrünün doqquz yüz əlli ilini peyğəmbər olaraq yaşadı, ancaq sonunda qövmü üsyanlarının nəticəsi olaraq sular altında həlak oldu. Lut peyğəmbər homoseksuallığın baş aldığı bir zamanda göndərildi. Onun qövmü də o qədər irəli getmişdilər ki, hətta peyğəmbərə belə təcavüz etmək niyyətinə düşdülər. Kişilər artıq öz həmcinsləri ilə cinsi münasibət yaşayırdılar. İbrahim peyğəmbər Nəmrudu tanrı olaraq qəbullanmadığı üçün atəşə atıldı. Bu da bir güc göstəricisi idi. Həzrət Musa fironla qarşı-qarşıya gəldi, ona inananlar çarmıxa çəkildi. İsa peyğəmbər haqqı, həqiqəti təbliğ etdi, onu da digər peyğəmbərlər kimi öldürmək istədilər. Və nəhayət son peyğəmbər Həzrət Məhəmməd Mustafa (səllallahu əleyhi və səlləm) Allah tərəfindən bir peyğəmbər olaraq göndərildi. Onun da çəkmədiyi əziyyətlər, görmədiyi zülmlər qalmadı.

Bugünkü zaman demək olar ki, bu sadaladığımız və uzunçuluq olmasın deyə sadalaya bilmədiyimiz hadisələrin hamısını bir araya yığaraq bizə təqdim etməkdədir. Tarix təkrardan ibarətdir deyimi burada özünü bir növ biruzə verməkdədir – üstünlük sevdası üçün qardaş qatili olmaq, qlobal istiləşmələr nəticəsində ortaya çıxan qasırğalar, mədəniyyət adı altında bizlərə aşılanmağa çalışılan, adına don geyindirilərək üçüncü cinsin nümayəndələri olaraq təyin edilən homoseksuallıq, varlıların üstünlüyünün qəbul edilməsi üçün kasıb təbəqəni əzmək, Peyğəmbərimizin zamanında olduğu kimi qız uşaqlarını diri-diri basdırmaq.

Bəli, bu gün qız uşaqları diri-diri basdırılmasa da cinsiyyəti bəlli olan kimi elə ana bətnindəcə dünyaya göz açmadan qətl edilməkdədir. Amma ona da ruh verildiyi üçün o da diri olaraq qəbul edilir.

Həzrət Peyğəmbər bu kainata bir peyğəmbər olaraq göndərildiyi zaman dünyanın vəziyyəti bu gündən fərqli deyildi. İnsanlığın düzəlməsi üçün hər cür çiləlchange qatlanan o mübarək insan elə bu səbəbdədir ki, bu gün də yad edilməkdədir.

Artıq bir neçə gündür ki, İslam aləmi Həzrət Peyğəmbərin mövludunu qeyd edir. Bu vəsiləylə məclislər qurulur, seminarlar verilir, konfranslar təşkil olunur. Bunun lehinə olanlar kimi, əleyhinə olanlar da heç şübhəsiz ki, vardır. Ancaq bu mövzuya toxunsaq mözvumuz başqa səmtə yön alacağından oraya toxunmadan keçirəm.

Bəli, bu proqramların, seminar və konfransların gözəl yanları da vardır. Bu qədər hazırlıqlar, görülən işlər, əlbəttə ki, Həzrət Peyğəmbəri cəmiyyətə, xalqa daha yaxşı tanıtmaq üçündür. Yuxarıda sadaladığımız hadisələrin, iyrənc olayların olmaması üçün o mübarək insan çox əziyyətlər gördü. O qaranlıq dünyadan aydınlığa çıxan yol açdı. Cəhalətdən Əsri-səadət dövrü meydana gətirdi. Qadın olduğu üçün heç bir dəyəri olmayan ananın ayağının altına cənnəti sərdi. Bu siyahını çox uzatmaq olar, ancaq mən qısa yazmaqla kifayətlənim. Bilirəm ki, siz oxucular nə demək istədiyimi anladınız. Arifə bir işarə kifayətdir misalı.

Odur ki, bu proqramlarda, seminarlarda danışılanlar sadəcə dinləmək xatirinə dinlənilməməli, ondan dərs alınmalı və danışılanlar həyatda tətbiq olunmalıdır.

# 15 İL ƏRZİNDƏ DƏYİŞƏN 11 TƏHSİL NAZİRİ

***"Milli Hərəkat Partiyası"nın idarəsindən bu günə qədər Gürcüstanın Təhsil Nazirliyi 11 nazir dəyişib. Nazir statusunu ən uzun müddət – 3 il Aleksandr Lomaia, Dimitri Şaşkin və Tamar Sanikidze saxlayıb.***



1. 3 illik nazirliyi dövründə Kaxa Lomaia təhsildə müxtəlif islahatlar aparıb. Onlar arasında ən genişmiqyaslı olanı vahid milli imtahanların qəbul olunmasıdır.



2. Lomaiadan sonra təhsil naziri vəzifəsini 1 il müddətinə Maia Miminoşvili tutur. O, 2002-2007-ci illərdə Milli İmtahanlar Mərkəzinə rəhbərlik edir, 2007-ci ildə isə təhsil və elm naziri təyin olunur. 2008-ci ildə M.Miminoşvili nazir vəzifəsini tərk edir və 10 il vahid milli imtahanlar mərkzinin direktoru olur.



3. 2008-ci ilin fevralında M.Miminoşvilini Giorgi Nodia əvəz edir.



4. Giorgi Nodia nazir vəzifəsində 8 ay qalır. 2008-ci ilin oktyabrında onu keçmiş ədliyyə naziri, hazırda isə "Mtavari Arxi" televiziya kanalının direktoru Nika Qvaramia əvəz edir.



5. 2009-cu ilin dekabrından isə N.Qvaramianı Dimitri Şaşkin əvəz edir. O, təhsil naziri olana qədər 11 ay ərzində cəzaçəkmə, probasiya və hüquqi yardım məsələləri üzrə nazir vəzifəsini tutur. Lomaia kimi D.Şaşkin də təhsil naziri statusunu 3 il saxlayır.



6. 2012-ci ilin iyulundan oktyabr ayına qədər təhsil naziri Xatia Dekanoidze olur. X.Dekanoidze nazir vəzifəsinə qədər 2 ay Milli İmtahanlar Mərkəzinin rəhbəri olur.



7. 2012-ci ildə hakimiyyət dəyişdikdən sonra təhsil naziri vəzifəsinə Giorgi Marqvelaşvili təyin olunur. 2013-cü ilin 11 mayında "Gürcü arzusu" koalisiyası G.Marqvelaşvilini prezidentliyə namizəd olaraq təqdim edir.



8. 2013-cü ilin iyulunda prezidentlik maratonuna qoşulan G.Marqvelaşvilini Tamar Sanikidze əvəz edir. T.Sanikidze 2016-cı il iyunun 3-nə qədər təhsil naziri olur. Həmin dövr baş nazir olan Giorgi Kvirikaşvili təhsil naziri olaraq Aleksandre Cecelavanı təyin edir.



9. 2016-cı ilin iyunundan 2017-ci ilin noyabr ayına qədər Gürcüstanın təhsil və elm naziri vəzifəsini Aleksandre Cecelava tutur. O, daha sonra Gürcüstanın baş nazirinin müavini olur.



10. A.Cecelavadan sonra təhsil naziri Mixeil Çxenkeli olur. O, bu vəzifədə 2018-ci ilin iyuluna qədər qalır.



11. Gürcüstanın 11-ci təhsil naziri isə ixtisasca psixoloq olan Mixeil Batiaşvili olur. O, bu vəzifədə 1 il qalır. M.Batiaşvili 2019-cu il noyabrın 7-si vəzifəsindən istefa verir.

*Mənbə:* ***netgazeti.ge***

# "MİLLİ MÜƏLLİM MƏKTƏBİ"NDƏ DƏRSLƏR BAŞLAYIB

Noyabrın 1-i "Milli Müəllim Məktəbi" proqramına başlanılıb və proqram çərçivəsində yeni müəllimlər pulsuz hazırlanacaq.

Tədris 12 şəhərdə aparılır: Tbilisi, Qori, Batumi, Kutaisi, Zuqdidi, Axaltsixe, Çoxatauri, Telavi, Axalkalaki, Çiatura, Senaki və Ambrolauri.

Hazırkı mərhələdə proqramda 1750 nəfər iştirak edir, onun 737 nəfəri çalışan müəllimlərdir.

Yeni proqram pedaqoqların hazırlanması ilə kiçik kontingentli məktəblərdə təhsilin keyfiyyətinin daha sürətlə inkişaf etdirilməsinə imkan yaradacaq.

Hazırlanan müəllimlər konkret bölgə-bələdiyyələr və məktəblər üçün hazırlanacaqlar, peşəkar inkişafda dəstək və əmək haqqı əlavəsi alacaqlar.

Proqram hazırlanan müəllimlərə fənn qrupundakı və ya ona yaxın olan fənlər üzrə 1-dən artıq fənni tədris etmək imkanı verir:

1. **Fizika, riyaziyyat, texnologiyalar.**
2. **Biologiya və kimya.**
3. **Tətbiqi və təsviri incəsənət/musiqi.**
4. **Tarix, coğrafiya, vətəndaş təhsili.**
5. **Başlanğıc təhsil (gürcü dili, riyaziyyat, təbiətşünaslıq).**

Proqram iştirakçıları eləcə də gürcü dili və ədəbiyyatı, bədən tərbiyəsi üzrə də hazırlanacaqlar.

Kursu başa vuranlar məktəblərə "axtaran" statusu ilə daxil olacaqlar, xüsusi proqrama qoşulacaqlar və bu, onlara tədrislə yanaşı məsafəli kurs keçmək və baş müəllim olmaq imkanı yaradacaq.

İştirakçılara əlçatanlıq məqsədi ilə mühazirələr rayon mərkəzlərində və böyük şəhərlərin məktəb bazasında, həftədə üç dəfə (cümə, şənbə və bazar günləri) keçiriləcək. Tədris kursunu kvalifikasiyalı trenerlər keçəcək. Hər bir fənn kursunun başa çatmasından sonra iştirakçılar məktəblərdə yerli müəllimlərin nəzarəti altında təcrübə keçəcəklər.

Xatırladaq ki, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi "Milli Müəllim Məktəbi" proqramını oktyabrın 10-u təqdim edib. Proqram müəllim olmaq istəyən və çalışan təcrübəçi müəllimlərə yardım və daha çox dəstək olmağı nəzərdə tutur.

# MƏKTƏBLƏRDƏ QIŞ TƏTİLİ NƏ ZAMAN BAŞLAYACAQ?

2019-2020-ci tədris ilində ictimai məktəblərdə qış tətili 30 dekabrda başlayacaq. Şagirdlər və müəllimlər 14 yanvara qədər istirahət edəcəklər.

İctimai məktəblərdə tətil və istirahət günləri bütün tədris ili ərzində müvafiq qanunla əvvəlcədən müəyyən edilib. Özəl məktəblər isə tədrisin başlanması və başa çatması tarixinə özləri qərar verirlər.

2019-2020-ci tədris ilində təhsilin müddəti 172 gündən ibarətdir. I semestr 74 tədris günü, II semestr isə 98 tədris günü təşkil edir. Yaz tətili isə 8 martdan 14 marta qədər sürəcək.

I siniflər tədris ilini 27 mayda, XII siniflər 20 mayda, qalan siniflər isə 15 iyunda başa vuracaqlar.

**2019-2020 სასწავლო წლის კალენდარი**

WWW.ETALONI.GE

სექტემბერი 2019

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 35 | | | | | | | 1 |
| 36 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 37 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 38 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 39 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 40 | 30 | | | | | | |

ოქტომბერი 2019

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| 40 | | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 41 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 42 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 43 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 44 | 28 | 29 | 30 | 31 | | | |

ნოემბერი 2019

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 44 | | | | | 1 | 2 | 3 |
| 45 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 46 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 47 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 48 | 25 | 26 | 27 | 28 | 29 | 30 | |

დეკემბერი 2019

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 48 | | | | | | | 1 |
| 49 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 50 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 51 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 52 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 1 | 30 | 31 | | | | | |

იანვარი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 1 | | | 1 | 2 | 3 | 4 | 5 |
| 2 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 3 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 4 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 5 | 27 | 28 | 29 | 30 | 31 | | |

თებერვალი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 5 | | | | | | 1 | 2 |
| 6 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 7 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 8 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 9 | 24 | 25 | 26 | 27 | 28 | 29 | |

მარტი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 9 | | | | | | | 1 |
| 10 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 11 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 12 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 13 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 14 | 30 | 31 | | | | | |

აპრილი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 14 | | | 1 | 2 | 3 | 4 | 5 |
| 15 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 16 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 17 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 18 | 27 | 28 | 29 | 30 | | | |

მაისი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 18 | | | | | 1 | 2 | 3 |
| 19 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 20 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 21 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 22 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

ივნისი 2020

| კვირა | ორ | სამ | ოთხ | ხუთ | პარ | შაბ | კვ |
|---|---|---|---|---|---|---|---|
| 23 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 24 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 25 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 26 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 27 | 29 | 30 | | | | | |

| | | | | |
|---|---|---|---|---|
| სასწავლო დღე | ზამთრის არდადეგები: | საგაზაფხულო არდადეგები: | სასწავლო დღეები: | |
| ოფიციალური დასვენების დღე | 30 დეკემბერი -14 იანვარი | 08 მარტი - 14 მარტი | I სემესტრი - 74 დღე | II სემესტრი 98 დღე (I კლასი 86 დღე, XII კლასი 81 დღე) |

| სწავლის დასრულება: | | |
|---|---|---|
| პირველი | 27 | მაისი |
| დამამთავრებელი | 20 | მაისი |
| სხვა | 15 | ივნისი |

***Səhifəni hazırladı: Aynurə Əliyeva***

# OXUMAQ MƏDƏNİYYƏTDİR




Sosial media həyatımıza daxil olduqca çap dərgilərinin sayı azalmağa başladı. Bununla yanaşı qəzet və jurnal hələ də öz aktuallığını, əvvəlki əhəmiyyətini daşımaqdadır. Hələ XIX əsrin sonlarında Azərbaycan qəzetinin yaranması öz qədim irsinə möhkəm bağlı olan toplum üçün böyük dəyişikliyə səbəb olmuşdur. Elə o zamandan başlayaraq çap mediasına diqqət artmış və yenilikçiliyə addımlar atılmışdır. Baxmayaraq ki, bir çox hallarda buna böyük maneələr yaradılmış, amma bu günə kimi qəzetlər öz mahiyyətini itirmədən öz varlığını qoruyub saxlamağa davam edir.

Yəqin hamıda bir sual yaranır, sosial media olduğu halda qəzet və jurnala nə ehtiyac var? Necə ki, bizim internetə çıxışımız və bütün materiallara əlçatanlığımız olduğu halda kitaba ehtiyac duyuruq, eləcə də qəzetlərə ehtiyac var.

Qəzet oxumaq mənim üçün gündəlik həyatın kiçik bir mədəniyyət formasıdır. Biz o qədər yadlaşmışıq ki, bu mədəniyyətə, bəzən bunu lap həyatımızın günlük saatlarından belə çıxarmışıq, əhəmiyyətsiz vaxt itkisi kimi. Xarici səfərlərimin birində səhər küçələri dolaşanda gördüyüm mənzərə mənə o qədər xoş təsir bağışlamışdır ki, ondan sonra çap mediasının əhəmiyyəti yenidən mənim üçün əsas prioritetə çevrildi. Səhər saatlarında taksi sürücüsü öz sükanı arxasında, mağaza sahibi kassa arxasında, sıravi insanlar parklarda oturaraq, işə gedənlər ictimai nəqliyyatda qəzət oxuyurdular. Səhər günün ilk başlanma mərhələsidir. Günü gün ərzində düzgün dəyərləndirmək, ictimai, sosial və siyasi məsələlərə yaxından bələdçilik insanda qərarverici vətəndaş əhval-ruhiyyəsi yaradır. Vətəndaş yaşadığı ölkədə və dünyada baş verən hadisələrlə yaxından tanış olur.

İndi isə keçək bizim yaşadığımız regionda qəzetlərə olan ehtiyaca. Bilirik ki, sovetlərdən sonra hələ icma olaraq tam formalaşa bilməmişik, təhsil, sosial fəallığı atmışıq arxa plana və əsas gündəlik məşğuliyyətimizi ac qalmamaq prinsipinə yönəltmişik. Şəhər mərkəzlərində insanların yeniliklərə tez malik olmaq imkanı var, amma sosial fəallıqdan uzaq qalmış dərin icmalarda isə bu problem qalmaqdadır.

Görüşlərin birində yerli kənd sakinlərinin informasiya qıtlığından necə əziyyət çəkdiyinin şahidi oldum, onlar qeyd edirdilər ki, heç qəzət belə gəlmir ki, bir xəbər oxuyaq, mərkəzdə baş verən hadisələrdən xəbərdar olaq. İkinci bir təəssüfedici hal məkətblərdə satılan qəzetlərə olan biganəlikdir, sanki nəşriyyat öz qəzetini satmaq üçün müəllimləri oxumağa məcbur edir. Müəllimlər isə qəzet üçün ildə verməli olduqları 10-15 lariyə etiraz edirdilər. Təbii ki, bu da özlüyündə fərqli və ağır məsələdir, elm öyrədən bir hissə özü elmini genişləndirməyə gündəlik proseslərdən xəbərdar olmaq üçün özünü yadlaşdırır. Amma təhsildə nə qədər problem məhz müəllimlərin yetərincə məlumatsızlıqlarından irəli gəldiyini ortaya qoyur.

Oxumaq bir mədəniyyətdir, oxumaq insanları mədəni vərdişlərə yiyələnməyə dəvət etməkdir, mədəni cəmiyyət formalaşdırmaq üçün. Çox böyük əməyə və zəhmətə başa gəlmiş bu mədəniyyəti oxumaqla qoruyaq.

**Samirə BAYRAMOVA**
*İctimai fəal, hüquq müdafiəçisi*

# DİLİMİZİ SEVƏK VƏ QORUYAQ

Artıq iki ildir ki, "Yeni Yol" qəzeti məktəbimizə yol açıb. Hər nömrəni oxuyanda içimdən bir hiss keçib ki, mən də bu qəzetə nəsə yazım, hardan gəldi ordan yox, damarıma toxunacaq bəzi mövzulara cavab verməK istəmişəm. Sonra da susmağın qızıl olduğunu düşünüb fikrimdən daşınmışam. Amma haraya qədər, narazılığım Azərbaycandilli məktəbləri asıb-kəsən gənclərədir, hansı ki, o məktəbləri bitirib gedib ali məktəbə qəbul olur və sonra başlayır öz bostanına daş atmağa. Əvvəla onu deyim ki, bir milləti məhv etmək üçün onun dilini, ədəbiyyatını əlindən almaq kifayətdir. İkincisi, öz ana dilinin qrammatikasını bilməyən başqa dili kifayət qədər mənimsəyə bilməz. Nə qədər çox dil bilməyiniz çox gözəl, amma ilk olaraq mütləqdir ki, öz ana dilini bilə və sevə. Bilmirəm məktəbi bitirdikdən sonra gənclərimizin bir qismini kim və ya kimlər manqurtlaşdırır ki, heç də uzaq olmayan keçmişlərini (məktəb illərini) belə tez unudurlar. Bu gün Azərbaycandilli məktəblərin tədrisindən narazı qalanlar, bu məktəblərin bağlanmasının azrusunda olanlar, kimsiz siz?

Başqa dili öyrənmək öz dilini unutmağa haqq vermir. 17-18 il öz ana dilində danışıb, öz ana dilli məktəbində oxuyub 4-5 ilə necə olur ki, belə unutqan olurlar. Necə deyərlər qınından çıxıb qınlarını bəyənmirlər.

Nədən biz bir millət olub birləşə, həmrəy ola bilmirik? Birləşmək, çəkicləri bir yerə vurmaq lazımdır! Məhz bu mənada "Anamın kitabı"ndakı kimi öz övladlarımız tərəfindən bölüşdürülən, parçalanan, bir ola bilməyən millət olaraq qalacağıq.

Fikrimi yenə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərindən bir nümunə ilə yekunlaşdırmaq istəyirəm: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır.



Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları (...) ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq".

Əgər biz anamızı sevmiriksə, demək ki, onun dilinə də xor baxırıq, milli dəyərimiz olan məktəbinə də biganə yanaşılacaqsa, demək ki, onda bu millətin məhvi labüddür.

Gəlin ana dilimizi sevək, qoruyaq, bu dil bizim istiqlalımızdır.

**Sevil DƏMİRÇİYEVA**
*Baydar ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

# OKTYABRIN 28-İ "BBC NEWS AZƏRBAYCANCA" SAYTINDA YAYIMLANMIŞ ""İMZA ATMAĞI BELƏ BİLMƏYƏN" ERKƏN EVLƏNDİRİLƏN QIZLAR" ADLI MƏQALƏNİ OLDUĞU KİMİ "YENİ YOL" OXUCULARINA TƏQDİM EDİRİK

**Gürcüstanda Kaxeti bölgəsində azyaşlı qızını evlənməyə məcbur edən etnik azərbaycanlı kişi həbs olunub. Bu məlumatı Gürcüstan Daxili İşlər Nazirliyi yayıb.**

Nazirlik bildirir ki, Saqareco rayonunun Yormuğanlı kəndindən olan kişi 2002-ci il təvəllüdlü qızını zorla ərə vermək istəyib.



17 yaşlı qız sığınacağa yerləşdirilib, atasını isə 2 ildən 4 ilədək cəza gözləyir.

Gürcüstan qanunvericiliyində evlilik üçün minimum yaş həddi 18-dir.

Amma Gürcüstanda etnik azərbaycanlılar arasında yayılan təkcə erkən evlilik deyil, üstəlik, bundan doğan fəsadlar, o cümlədən selektiv abortlar demək olar ki, həkimlər üçün artıq böyük bir problemə çevrilib, azyaşlı gəlinlərin müraciət etdikləri bəzi həkimlər deyirlər.

"15 yaşa qədər doğuşların 85-90 faizi Kvemo Kartli bölgəsindəndir", etnik azərbaycanlıların doğuş və abort üçün ən çox müraciət etdikləri deyilən Tbilisidəki ginekologiya üzrə ixtisaslaşan xəstəxananın baş həkimi Zaza Sinauridze danışır.

Gürcüstan qanunvericiliyi isə 16 yaşına çatmamış şəxslə cinsi əlaqəyə görə 6 ildən 9 ilə qədər həbs müddətini nəzərdə tutur. 2017-ci ilin yanvar ayından isə 18 yaşa qədər nikah qeydiyyatı qadağan edilib.

Erkən evliliklə bağlı Ombudsmanın 2016-cı ildə hazırlanmış hesabatında göstərilir ki, azyaşlı valideynlərin sayına görə Kvemo Kartli bölgəsi 4-cü yerdə qərar tutur.

**15 YAŞINDA ƏRƏ VERİLMİŞ QIZIN HEKAYƏSİ**

Hazırda 20 yaşı olan Qardabani sakini Günel (ad müsahibin istəyi ilə dəyişdirilib) 16 yaşında ana olduğu zaman doğuş haqqında heç bir məlumatı olmayan qadınlardan biridir.

Günel 15 yaşında ailə həyatı qurub. Bir il sonra isə ilk övladını dünyaya gətirib.

"Doğuşa gedərkən heç bir məlumatım yox idi. Mən 15 yaşında evlənəndə evlilik haqqında heç bir məlumatım yox idi. Evlənməyin gözəl bir şey olduğunu düşünürdüm. Həqiqətən də bu bir xəyal imiş. Çünki çox uşaq imişəm, çox. İndi başa düşürəm hər şeyi. Amma artıq çox gecdir", o deyib.

Gürcüstan qanunvericiliyində 16 yaşına çatmamış şəxslə cinsi əlaqəyə görə 6 ildən 9 ilə qədər həbs müddəti nəzərdə tutulur. Belə bir qanunun mövcud olmasına baxmayaraq, azərbaycanlılar arasında erkən evlilik hallarının sayı artmaqda davam edir, həkimlər iddia edirlər. Bu səbəbdən xəstəxanalar xüsusi hüquq-mühafizə orqanlarını azyaşlı gəlinlər barədə xəbərdar edirlər. Ondan sonrası isə xəstəxanaya məlum deyil, həkimlər deyirlər.

Gürcüstanda Ombudsmanın 2018-ci il hesabatında deyilir ki, ölkə üzrə bu ildə azyaşlı valideyn kimi 715 ana və 23 ata qeydiyyata alınıb.

Ombudsmanın hesabatında göstərilir ki, səhiyyə xidməti göstərən şəxslər azyaşlı hamilələrlə bağlı doğum haqqında şəhadətnamə verilməsi üçün 24 saat ərzində xüsusi dövlət qurumlarına məlumat verirlər.

Qurumdan BBC News Azərbaycancaya bildirilib ki, Gürcüstan Ombudsmanı xüsusi dövlət qurumlarından hansı hüquqi işlərin görülməsi ilə bağlı məlumat əldə edə bilməyib.

**ABORT CƏHDİ**

"Təsəvvür edin ki, 13 yaşlı uşaq ərə gedir. Yəni bu yaşa qədər anası ilə birlikdə olub. Birdən başqa ailəyə ərə gedib: yad mühit. Bunların hamısı onun üçün streslidir. Üstəlik hamiləlik. Bu da onun gələcək həyatına iz salır. Qorxu və depresiyaya səbəb olur", Pineo xəstəxanasının Ginekologiya şöbəsinin baş həkimi Zaza Sinauridze deyir.

Qadının erkən hamilə qalmasını onun orqanizmi üçün "dağıdıcı" adlandıran Sinauridzenin sözlərinə görə, səbəb reproduktiv sistem də daxil olmaqla, digər sistemlərin də formalaşmamış olmasıdır.

"Hamiləlik vaxtı orqanizmdə dövr edən qanın həcmi təxminən iki dəfə artır. Bu da o deməkdir ki, ürək iki dəfədən artıq işləməlidir. Ürək-damar sistemi formalaşmamış azyaşlı hamilə üçün isə bu iki və üç dəfədən artıq yük deməkdir", deyə həkim izah edir.

O, bəzən azyaşlı gəlinlərin özlərini abort etmək cəhdindən də bəhs edir.

"On il bundan əvvəl Quduşauri xəstəxanasında işləyən zaman bir qadın gətirdilər. Qadın özünü abort edərək uşaqlıq, sidik kisəsi, düz və nazik bağırsağı zədələmişdi. Onu xilas etmək üçün bütün briqadanın 5 saatlıq əməliyyatına ehtiyac oldu. Nəticədə uşaqlığı və bağırsağı çıxardıq. Bundan sonra təbii ki, qadın daha ana ola bilməyəcək."

**"GƏLƏNLƏR, ÖZ QAN QRUPUNU, YAZMAĞI, HƏTTA İMZA ATMAĞI BİLMİRLƏR"**

Baş həkimin sözlərinə görə, digər problem ondadır ki, qızlar nə gürcücə, nə də rusca danışa bilir. Buna görə də azərbaycanlıların ən çox müraciət etdiyi deyilən bu xəstəxanada Azərbaycan dilini bilən xüsusi işçilər fəaliyyət göstərir.

Onlardan biri, tibb bacısı və laborant kimi fəaliyyət göstərən R.Kərimova deyir ki, xəstəxanaya doğuşa gələn qızlar arasında minimum yaş həddi 14-dür.

"Gələnlər, adicə öz qan qrupunu, yazmağı, hətta imza atmağı bilmirlər. Utanıram, dalaşıram. Evliliyə hazır deyillər. Məni köməyə çağırırlar. 13 yaşında kukla ilə oynamalıdı. Bu artıq…", deyə Kərimova hamilə qadın qarnını göstərən əl işarəsi edir.

Kərimova onu da qeyd edir ki, doğuşa gələn azyaşlı qızlar o qədər qorxurlar ki, bəzən doğuş zamanı evin böyüyü hesab edilən qayınatalarının da yanlarında qalmasını istəyirlər.

"Dalaşıram. Deyirəm, ayıbdır, ay kişi... çıx...", Kərimova əlavə edir.

R.Kərimova qızların erkən evlənməsinin səbəbini "ailələrdə maddi vəziyyətin aşağı olmasında" görür. "Bu saat çox kasıbçılıqdı. Ona görə də gedirlər, analar-atalar ərə verirlər…"

**"18 YAŞA QƏDƏR EVLƏNƏNLƏR BUNU AÇIQ FORMADA DEMİRLƏR"**

Kvemo Kartli etnik azərbaycanlıların yaşadığı və erkən evlilik hallarının çox olduğu tək yer deyil. Tbilisinin mərkəzindən 15 dəqiqə aralıqda yerləşən azərbaycanlıların məskunlaşdığı Poniçala qəsəbəsində də (keçmiş adı Soğanlıq) vəziyyət digərlərindən fərqlənmir.

Təhsil Nazirliyinin statistikasına görə, təkcə 2017-2018 illər ərzində 7 minə yaxın əhalisi olan qəsəbədə 24 məktəbli qız təhsildən uzaqlaşdırılıb.

Qəsəbənin girişindən beş dəqiqəlik məsafədə yerləşən "Bici" xəstəxanasında baş həkim kimi fəaliyyət göstərən Mixeil Giladze deyir ki, iki il əvvəl xəstəxanaya gələn qızlardan birinin 18 yaşı tamam olmamasına baxmayaraq, artıq iki uşaq anası olub və hər zaman yoxlanışa valideyni ilə gəlib.

"Hər yoxlanışa valideyni ilə gəlirdi... Məktəbə aparan kimi..."

"18 yaşa qədər evlənənlər bunu açıq formada demirlər. Mən hiss edirəm ki, son zamanlar bizə, yəni yerli poliklinikalardan daha çox şəhərlərə gedirlər. Yəqin ki, orada informasiyanın yayılmasının qarşısını almaq daha asandır".

Amma Mixeil Giladze qəsəbədə bu problemdən gileylənən yeganə həkim deyil. Qəsəbədə daha çox yerlilərin istifadə etdiyi ambulatoriyanın baş həkimi Emzar Abuladze də qızların yarıdan çoxunun erkən yaşda evləndiyini deyir.

"Ambulatoriyada qeydiyyatda olan 18 yaşlı bir qızın üç uşağı var. Siyahıda 10-a qədər belə qızlar var. 17-18 yaşında ailə qurmağı bəzən gec hesab edirlər", Abuladze qeyd edir.

Baş həkim Mixeil Giladze də dil probleminə toxunur.

"Dil baryeri bir çox şeyi çətinləşdirir. Elə buna görə də köhnə ənənələr qalmaqda davam edir. Ölkədə nə baş verdiyindən xəbərsiz qalırlar. İnformasiya çatışmazlığı hər şeyə səbəb olur".

Həkim Giladze erkən evlənənlərin ya məktəbə getməmiş, ya da məktəbi bitirməmiş qızlar olduğunu hesab edir. Bu halda da ana onların əlindən tutub ərə verən zaman heç bir etiraz etmirlər.

"Çünki bilmirlər bu pisdir, yoxsa yaxşı", o əlavə edir.

**HÖKUMƏT QURUMLARI ERKƏN NİKAHLA NECƏ MÜBARİZƏ APARIR?**

Gürcüstanın Təhsil, Elm və İdman Nazirliyinin nümayəndəsi Mariam Çikobava deyir ki, azyaşlıların, xüsusilə də qızların dərslərdən yayınmasının qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirilir.

"Birinci istiqamət informasiya xarakterli tədbirlərin görülməsi, ikinci istiqamət məktəblərə təhlükəsizliyə cavabdeh olan şəxslərin təyin edilməsi və son olaraq tədris olunan fənlərə lazımı məlumatların daxil edilməsi", Məktəbəqədər Tədris və Ümumi Təhsilin İnkişafı Departamentinin sədri Çikobava izah edir.

Onun sözlərinə görə, məktəblərdə təhlükəsizliyə cavabdeh şəxslər təhsildən yayınan şagirdlərlə, qızlarla bağlı tədbir görür və bununla bağlı Sosial Agentliyə məlumat verir.

Çikobava onu da qeyd edir ki, BMT-nin Əhali Fondunun araşdırması nəticəsində bu problemin tək etnik azlıqların yaşadığı regionlarda deyil, bütün ölkə üzrə mövcudluğu məlum olub. Bu səbəbdən təhsil proqramında dəyişiklər edilib.

""Biologiya" dərsliklərinə qadının reproduktiv sistemi ilə bağlı detallı məlumatlar əlavə etdik. Yəni reproduktiv sistemin inkişafı necə baş verir, inkişaf tamamlanmadan atılacaq hər hansısa addımın sağlamlığa verə biləcəyi təsirlər nələr ola bilər... "Vətəndaş təhsili" dərsində də bunun hüquqi tərəfləri izah olunur. Bu iki fənni problemi aradan qaldırmaq üçün yenidən təşkil etdik."

Hüquqi tədbirlərə gəlincə isə Baş Prokurorluq 2018-ci ildə "16 yaşına çatmamış şəxslə cinsi əlaqə və yaxud ona qarşı seksual xarakterli davranış maddəsi" ilə 3 nəfərə qarşı cinayət təqibi başladıb. 2017-ci ildə bu rəqəm 13, 2016-cı ildə isə 22 olub.

"Azyaşlıya qarşı seksual xarakterli zorakı davranış"a görə isə 2019-cu ilin ilk 6 ayında 3 nəfər barəsində, 2018-ci ildə isə 5 nəfər barəsində cinayət təqibinə başlanılıb.

Daxili İşlər Nazirliyi universitet və tədris qurumlarında maarifləndirici tədbirlər keçirdiyini bildirib. Qurumun İnsan Hüquqlarının Müdafiəsi və Regionların Polis Departamentlərinin əməkdaşları qadına qarşı zorakılıqla 16 günlük mübarizə kampaniyası çərçivəsində Tbilisi, Kaxeti, Şida Kartli və Kvemo Kartlidə, Acarada və Sameqreloda 12 görüş keçiriblər.

# "YENİ YOL" QƏZETİNİN 100-CÜ SAYI İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB





Noyabrın 12-si Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) Qardabanidəki ofisində təşkilatın nəşr etdirdiyi "Yeni Yol" qəzetinin 100-cü sayının işıq üzü görməsi ilə bağlı tədbir keçirilib.

Tədbiri "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlu açıq elan edərək tədbirdə iştirak edən qonaqları, yazarları qəzetin 100-cü sayı münasibətilə təbrik edib. Sonra çıxış üçün söz GYMD-nin sədri Musa Hacıyevə verilib. Təşkilat sədri qonaqları salamladıqdan sonra GYMD-nin fəaliyyəti və "Yeni Yol" qəzeti haqqında qısa məlumat verib. Sonra qəzetlə bağlı hazırlanmış videoçarx nümayiş etdirilib. Videoçarx vasitəsilə "Yeni Yol"un 100-cü sayını Gürcüstan Parlamentinin millət vəkilləri Savalan Mirzəyev, Mahir Dərziyev, Qardabani və Marneuli bələdiyyələrinin icra başçıları Zaur Darğallı və Ramaz Budağaşvili, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Azərbaycan Respublikası Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Aygül İsayeva, İnkişaf və Təhsil Mərkəzinin rəhbəri Emin Əhmədov və digərləri təbrik etmişlər.

Virtual təbriklərdən sonra Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov, Türkiyənin Gürcüstandakı səfirliyinin Din Hizmətləri müşaviri Ahmet Erdem, Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin birinci müşaviri Sərxan İsmayılov və səfirliyin əməkdaşı Rəhim Rəhimzadə, Azərbaycandan gəlmiş qonaqlar – "Müasir İnkişaf" İctimai Birliyinin sədri Mübariz Göyüşlü, Azərbaycanda fəaliyyət göstərən Ana Vətən Partiyasının sədr müavini Arzuman Abdulkərimov, Tiflis Yunus Əmrə İnstitutunun rəhbəri Ali Oğuzhan Yüksel, professor Mahmud Kamaloğlu, qəzetin daimi yazarlarından Mirzə Məmmədoğlu, Sahib Mustafalı, Şənhəyat Elmanqızı və oxucular adından da Zabit Hüseynov çıxış edərək təbriklərini və arzularını bildirdilər.

Çıxışlar zamanı qəzetin əhəmiyyəti, bölgədəki informasiya qıtlığının aradan qaldırılmasındakı rolu, tərəfsiz və doğru xəbərləri işıqlandırması qeyd edildi.

Tədbirin sonunda qəzetin redaksiya heyətinə, yazarlarına və qəzetlə əməkdaşlıq edən şəxslərə təşəkkürnamələr təqdim olundu.

# AĞTƏHLƏ VƏ QARATƏHLƏ UŞAQ BAĞÇALARININ TİKİNTİSİ BAŞA ÇATMAQ ÜZRƏDİR



Qardabani bələdiyyəsinin Ağtəhlə və Qaratəhlə kəndlərində 300-ə qədər uşaq üçün nəzərdə tutulmuş uşaq bağçasının tikinti prosesi başa çatmaq üzrədir. Layihənin gedişatını Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və Qardabani bələdiyyəsinin icra başçısı Ramaz Budağaşvili yerində müşahidə edib və işləri həyata keçirən şirkət nümayəndələri ilə söhbət ediblər.

Qeyd edilməlidir ki, bələdiyyədə son 2 il ərzində yeni uşaq bağçalarının tikintisi və mövcud olan bağçaların bərpası fəal şəkildə aparılır. Həyata keçirilən və planlaşdırılan infrastruktur layihələri nəticəsində 2020-ci ilin sonunda Qardabanidə müasir standartlara cavab verən uşaq bağçasının olmadığı kənd qalmayacaq.

# MARNEULİ BƏLƏDİYYƏSİNİN İCRA BAŞÇISI GƏNC İDMANÇI KƏNAN BAYRAMOVU QAZANDIĞI UĞURA GÖRƏ TƏBRİK EDİB



Marneuli bələdiyyəsinin icra başçısı Zaur Darğallı gənc idmançı Kənan Bayramovu beynəlxalq səviyyədə qazandığı uğura görə təbrik edib.

Z.Darğallı idmançıdan qazandığı uğurlar haqda məlumatı şəxsən dinləyib, ona uğurlar arzu edib və gələcək işlərində dəstəyini bildirib.

Qeyd edək ki, Kənan Bayramov cari ilin 18-20 oktyabrında Almaniyanın Nordhorn şəhərində keçirilən kikboksinq üzrə beynəlxalq çempionatda 70 kiloqram çəki dərəcəsində birincilik əldə edib.

# MARNEULİ VƏ BOLNİSİNİN SU TƏMİNATI VƏ KANALİZASİYA SİSTEMİ İLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN LAYİHƏ ÜZRƏ İŞLƏR DAVAM ETDİRİLİR



Bölgələrdə həyata keçirilən infrastruktur layihələrinin monitorinqi çərçivəsində regional inkişaf və infrastruktur nazirinin müavini İlia Beqiaşvili və Birləşmiş Su Təchizatı Şirkətinin direktoru Ekaterine Qaldava Marneuli və Bolnisinin su təchizatı və kanalizasiya sistemlərinin tikinti prosesi ilə yaxından tanış olublar.

İ.Beqiaşvili və E.Qaldava tikinti işlərini həyata keçirən Azərbaycanın "Akelik Group" şirkətinin nümayəndələrindən aparılan işlərlə bağlı ətraflı məlumat alıblar.

"Gürcüstanda belə genişmiqyaslı layihə çox az həyata keçirilib. Layihə başa çatdıqdan sonra bu infrastrukturdan istifadə edəcək əhalinin sayı da çoxdur. Müqavilə bağladığımız şirkət nümayəndələri ilə də görüşümüz oldu və layihəyə nəzarət edənlərlə belə görüşlərimiz tez-tez olacaq ki, işlərin tempindən geri qalmayaq", - deyə İ.Beqiaşvili bildirib.

Layihə çərçivəsində nasos stansiyalarının və rezervuarların tikintisi, mərkəzi borunun və daxili şəbəkənin qurulması, xarab olmuş boruların yenisi ilə əvəz edilməsi, kanalizasiyalar üçün nasos stansiyalarının tikilməsi işləri aparılır.

"Aparılan genişmiqyaslı layihələrdə monitorinq daim həyata keçirilir. Bugünkü vəziyyətə görə, işlərin tempi qənaətbəxşdir. Ümid edirik ki, layihə müəyyən edilmiş vaxt çərçivəsində başa çatacaq. İşlər görülən zaman keyfiyyətə böyük diqqət ayrılır", - E.Qaldava bildirib.

Layihə 2021-ci ilin yazında başa çatacaq və nəticədə Marneuli şəhərinin və ətraf Sereteli, Saimerlo, Böyük Bəylər, Kiçik Bəylər və Qızılhacılı kəndlərinin əhalisi, ümumilikdə, 35 000-ə qədər sakin stabil su təchizatı ilə təmin olunacaq. Yeni kanalizasiyalardan Marneuli, Bolnisi və Qızılhacılı əhalisi, ümumilikdə, 37 000-ə qədər adam yararlanacaq.

Layihənin reallaşdırılmasına Asiya İnkişaf Bankı 150 milyon lari həcmində vəsait ayırıb.

# QAÇAĞAN KƏNDİNDƏ İLİN SONUNA QƏDƏR YENİ İCTİMAİ MƏRKƏZ AÇILACAQ

Marneuli bələdiyyəsinin Qaçağan kəndində ilin sonuna qədər yeni ictimai mərkəz fəaliyyətə başlayacaq. Mərkəzin tikinti prosesini İsveçrənin əməkdaşlıq ofisinin Cənubi Qafqaz üzrə regional direktoru Daniel Miul, Gürcüstanda BMT-nin İnkişaf Proqramının (UNDP) daimi nümayəndəsi Luiza Vinton və BMT-nin İnkişaf Proqramının, Avstriyanın İnkişaf Agentliyi və İsveçrənin əməkdaşlıq ofisinin nümayəndələri yerində müşahidə ediblər.

Marneulidə işgüzar səfərdə olan qonaqları Marneulinin icra başçısı Zaur Darğallı və onun müavini Laşa Lobjanidze qarşılayıb.

Qaçağanda ictimai mərkəzin tikintisi BMT-nin "Gürcüstanda regional və yerli inkişafa dəstək, faza 2" inkişaf proqramının çərçivəsində, İsveçrə və Avstriya hökumətinin dəstəyi ilə həyata keçirilir.

İctimai mərkəz Qaçağan və ətraf altı kəndə – Təkəli, Xancığazlı, Ağməmmədli, Qasımlı, Ulaşlı və Kirəçmuğanlıya xidmət göstərəcək.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 NOYABR 2019-CU İL/ №021 (101)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTANDA VERİLƏN DAİMİ YAŞAYIŞ ÜÇÜN İCAZƏ VƏSİQƏLƏRİNİN SAYINA GÖRƏ RUSİYA VƏTƏNDAŞLARI LİDERLİK EDİR



2018-ci ilin 31 dekabrına olan göstəricilərə əsasən, Gürcüstanda 20 811 nəfər xarici vətəndaşa daimi yaşayış üçün icazə vəsiqəsi verilib. Bunun 8 889-u (44%) Rusiya vətəndaşıdır. Bu haqda Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasının 2019-cu il üzrə "Miqrasiya profili" hesabatında qeyd olunub.

İkinci yerdə 16%-lə Azərbaycan durur. Daimi yaşayış icazəsi 3 189 Azərbaycan, 2 211 Ermənistan, 1 718 Ukrayna vətəndaşına verilib. Digər ölkə vətəndaşlarına verilən daimi yaşayış üçün icazə vəsiqəsinin sayı isə 3 946 təşkil edib.

2018-ci ilin 31 dekabrına olan məlumata görə, 31 356 xarici vətəndaşa müvəqqəti yaşayış üçün icazə vəsiqəsi verilib. Müvəqqəti yaşayış icazəsinə görə 7 279 nəfərlə İran vətəndaşları liderlik edir, daha sonra 5 951 nəfərlə Hindistan, üçüncü yerdə isə 4 028 nəfərlə Rusiya durur.

Yaşayış üçün icazə vəsiqəsinə malik olan xarici vətəndaşların yarı hissədən çoxu Tbilisidə, təqribən 1/3 hissəsi KvemoKartli və Samtsxe-Cavaxeti bölgələrində qeydiyyat olunub.

"Son 4 il ərzində Dövlət Xidmətlərinin İnkişafı Agentliyi tərəfindən xarici ölkə vətəndaşlarına müxtəlif əsaslarla 88,493 yaşayış üçün icazə verilib. Bu hal ən çox 2015-ci ildə baş verib. 2016-cı ildə yaşayış üçün icazələrin sayının azalması 2015-ci ilin iyununda qüvvəyə minən qanunvericilik dəyişiklikləri ilə izah olunur. Dəyişikliyə əsasən, Gürcüstana vizasız daxil olmaq və 1 il müddətinə ölkədə qalmaq hüququ 95 ölkə vətəndaşına verilib. Ancaq bu tənzimləməyə baxmayaraq 2016-cı ildən yaşayış icazələrinin verilməsi statistikası yenə də artıb", - hesabatda deyilir.

Qeyd edilməlidir ki, son dörd il ərzində yaşayış üçün verilən icazələrlə bağlı rədd cavablarının sayı 3%-dən 23%-ə qədər artıb. Araşdırmaya əsasən, 2018-ci ildə yaşayış üçün icazə vəsiqəsinə görə 6598, 2017-ci ildə 4256, 2016-cı ildə 1659, 2015-ci ildə 889 nəfər xarici ölkə vətəndaşına rədd cavabı verilib.

2015-2018-ci illərdə verilmiş yaşayış üçün icazələrin ən böyük hissəsi əmək və təhsil üçün verilmiş müvəqqəti yaşayış üçün icazələrin payına düşür.

*Mənbə: BusinessPressNews*

## GÜRCÜSTAN İNGİLİS DİLİ SƏVİYYƏSİNƏ GÖRƏ AVROPADA SONDAN ÜÇÜNCÜ YERDƏDİR




Gürcüstan ingilis dili səviyyəsinə görə Avropada sondan üçüncü yerdədir. Bu barədə xarici dillərin tədrisi üzrə beynəlxalq "Education First" şirkətinin "İngilis dili bilmə indeksi" hesabatında bildirilib.

İllik reytinqə dünyanın 100 ölkəsi daxil olub. Nəticədə müəyyən edilib ki, Avropada ingilis dilini ən pis Azərbaycanda bilirlər, sondan ikinci yerdə Türkiyə, üçüncü yerdə isə Gürcüstandır.

Qlobal miqyasda isə ingilis dili bilmə səviyyəsinə görə Gürcüstan 56-cı, Türkiyə 79-cu, Azərbaycan 85-ci yerdə qərarlaşıb.

Avropa İttifaqına üzv ölkələrdən ingilis dilini ən pis italyanlar bilir (36-cı yer). İngilis dilini ən yaxşı bilənlər isə Niderland (1-ci yer), İsveçrə (2-ci yer) və Norveçdədir (3-cü yer).

Siyahının sonuna Livia düşüb (100-cü yer). Dünyada ingilis dilini ən pis bu ölkədə bilirlər. 99-cu yerdə Qırğızıstan, 98-ci yerdə isə Səudiyyə Ərəbistanıdır. Ermənistan isə, ümumiyyətlə siyahıya daxil olmayıb.

## BU İL 21 975 ŞƏXSİN GÜRCÜSTAN ƏRAZİSİNƏ DAXİL OLMASINA İCAZƏ VERİLMƏYİB




Gürcüstanın Daxili İşlər Nazirliyinin hesabatına əsasən, cari ilin əvvəlindən oktyabrın 20-nə qədər, ümumilikdə, 21 975 şəxsin Gürcüstan ərazisinə daxil olmasına icazə verilməyib.

Ölkəyə ən çox buraxılmayan əcnəbilər İran (9 272) və Hindistan vətəndaşları (4 238) olublar. 1607 nəfər Azərbaycan vətəndaşının Gürcüstana girişinə qadağa qoyulub.

İllik müqayisədə Gürcüstana buraxılmayan şəxslərin sayı artıb. Belə ki, ötən il 16 025 şəxsin Gürcüstana girişi qadağan edilib.

## 23 MİNDƏN ÇOX İNSAN 100 LARİDƏN AZ ƏMƏK HAQQI ALIR

Parlamentə minimum əmək haqqı ilə bağlı qanun layihəsi təqdim edilib. Layihənin məqsədi Gürcüstanda bir işçinin minimum ehtiyaclarını təmin edəcək minimum əmək haqqını qanunla müəyyən etməkdir. Qanun layihəsinin müəllifi Həmkərlar İttifaqı Birliyidir.

Qanun layihəsinə əsasən, minimum əmək haqqı tam qrafiklə çalışan şəxs üçün 320 lari dəyərində, natamam qrafik üçün saatda 2 lari dəyərində müəyyən edilməlidir.

Layihəyə əsasən, tam iş qrafiki ay ərzində ən azı 120 saat, natamam iş qrafiki isə 120 saatdan az hesab edilir.

Qanun layihəsinə əsasən, dəyişiklik 2020-ci il yanvarın 1-dən qüvvəyə minməlidir.

"Ölkədəki sosial problemlər arasında ən ciddi problem yoxsulluqdur. 2018-ci ilin rəsmi göstəricilərinə görə, ölkədə yoxsulluq səviyyəsi 22,3% təşkil edir, 11,6% isə yoxsulluq həddindən aşağı səviyyədədir və yardım alır. 2019-cu ilin avqust ayına olan göstəricilərə əsasən, ölkədə 23 526 nəfərin əmək haqqı 100 laridən, 63 356 nəfərin 200 laridən, 114 000 nəfərin 300 laridən, 126 665 nəfərin 320 laridən aşağıdır", - qanun layihəsində qeyd olunub.

## OKTYABRDA ƏN ÇOX BAHALANAN MƏHSULLAR



Milli Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin oktyabrında ötən ayla müqayisədə Gürcüstanda inflyasiya səviyyəsi 0,8 faiz, illik inflyasiya səviyyəsi isə 6,9 faiz təşkil edib.

Oktyabrda ötən ilin müvafiq ayı ilə müqayisədə ən çox bahalanan məhsulların onluğu aşağıdakı kimidir:

- Sarımsaq – 96,69%;
- Armud – 68,96%;
- Şəhərlərarası telefon vergisi – 68,29%;
- Mandarin – 66,80%;
- Qarpız – 57,28%;
- Portağal – 36,13%;
- Qarabaşaq – 35,47%;
- Göyərti – 34,12%;
- Şəkər – 33,34%;
- Soğan – 32,40%.

## BU AY YÜZ OBYEKT ÖZƏLLƏŞDİRMƏYƏ ÇIXARILACAQ

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin məlumatına əsasən, bu ay ərzində Gürcüstanda 100 obyekt özəlləşdirilməyə çıxarılacaq.

Gürcüstan hökumətinin bu qərarı iqtisadiyyatın və milli valyuta olan larinin məzənnəsinin möhkəmləndirilməsi məqsədi ilə qəbul olunub.

Dövlətin investorlara satmağa planlaşdırdığı obyektlərin ümumi dəyəri 100 milyon laridən çoxdur. Özəlləşdirilmə Gürcüstanın dəmir yolları və elektrik sistemi kimi əhəmiyyətli strateji obyektlərinə şamil edilməyəcək.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.